**“Xalq qəzeti”.-**2013.-6 mart.-S.5.

## Azərbaycan Cənubi Qafqaz regionunun lider dövlətidir

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev doqquz ildən bir qədər çoxdur ki, ölkəyə rəhbərlik edir. Əlbəttə, doqquz il vaxt göstəricisi kimi çox qısa bir zaman kəsimidir, amma bu illər ərzində ölkəmizdə çox böyük nailiyyətlər əldə edilmişdir. Cənab İlham Əliyevin qətiyyətli, düşünülmüş və məqsədyönlü siyasi addımları Azərbaycan Respublikasında mövcud təbii-iqtisadi resurslardan düzgün və səmərəli istifadəni təmin etməklə, qısa müddətdə ölkəmizi regionda lider dövlətə, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə və ən əsası, öz sərvətlərinin şəriksiz sahibinə çevirdi.**

Artıq Azərbaycan Respublikası beynəlxalq aləmə sürətlə inteqrasiya olunan, dünyada cərəyan edən iqtisadi proseslərdə özünəməxsus yeri və mövqeyi olan, dinamik iqtisadi inkişafını və siyasi stabilliyini təmin etmiş müstəqil bir dövlətdir. Müasir Azərbaycan mötəbər kürsülərdən öz sözünü deməyə, öz haqlı mövqeyini bildirməyə və qorumağa tam qadirdir və zəngin iqtisadi potensiala malikdir. Xalqımız müstəqilliyin ilk illərində məlum səbəblərdən bərbad hala düşmüş ölkə iqtisadiyyatında tərəqqiyə nail olunmasına, çox kövrək, zəif və xaotik dövlət siyasətinin güclü və aparıcı mövqeyə yüksəlməsinə, eləcə də vahid məqsədə xidmət etməsinə, qədim tarixi və çoxəsrlik zəngin mədəniyyəti olan uca millətimizin bütün dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyətinin nəticələrinə görə ümummilli lider Heydər Əliyevə minnətdardır. Dünya təcrübəsindən də məlumdur ki, dövlət başçısı ölkənin inkişaf tələblərini və xalqın mənafeyini dəqiqliklə qiymətləndirməyə qadir olan, ölkənin mədəni, iqtisadi və təbii resurslarını, potensialını əhalinin rifahı və dövlətçiliyin inkişafına yönəltməyi bacaran şəxs olmalıdır. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir ki, tarix xalqımıza Heydər Əliyev kimi dünya miqyaslı şəxsiyyət, eləcə də xalqımızın və dövlətimizin qarşısında duran çətinlikləri aradan qaldırmaqla Azərbaycan dövlətini qısa zamanda hüquqi, dünyəvi, demokratik inkişaf yoluna çıxarmağa qadir olan dövlət başçısı, ümummilli lider bəxş etmişdir. Eyni zamanda, belə bir reallıq da mövcuddur ki, əsl siyasətçinin və liderin başlıca xüsusiyyətlərindən biri də özündən sonrakı dövrü düzgün təhlil etməsi, layiqli davamçı yetişdirməsidir. Əlbəttə, dahi Heydər Əliyevin ucalığını, vətənə və millətə məhəbbətini, əsl ümummilli lider olmasını sübut edən nümunələrdən biri də İlham Əliyev kimi uzaqgörən, Heydər Əliyev ideyalarını layiqincə davam etdirməyə qadir olan siyasətçi yetişdirməsidir. Başqa sözlə desək, biz ümummilli lider Heydər Əliyevə həm də ona görə borcluyuq ki, o, özündən sonrakı Azərbaycanı təsadüflərin ixtiyarına buraxmadı, layiqli davamçı və gənc lider yetişdirdi.

“Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam” deməklə fəaliyyətə başlayan cənab İlham Əliyev ötən illər ərzində öz praktiki fəaliyyətində, sözün əsl mənasında, hər bir kəsin prezidenti olduğunu sübut edərək, ölkəmizdə dinamik sosial-iqtisadi tərəqqini təmin edən ictimai-siyasi sabitliyin qorunub saxlanması, Azərbaycan Respublikasının beynəlxalq arenada nüfuz və mövqelərinin möhkəmləndirilməsi, ictimai həyatın bütün sahələrində mütərəqqi islahatların aparılması istiqamətində çox mühüm addımlar atmışdır. Ümummilli liderin iqtisadi strategiyasının “...biz Azərbaycanı güclü dövlətə çevirməliyik. Bu vəzifə bir müddət əvvəl qarşıya qoyulmuşdur və biz bu məqsədə doğru irəliləyirik. Azərbaycanda aparılan iqtisadi islahatlar öz səmərəsini verməkdədir...” söyləyən cənab İlham Əliyev tərəfindən inamla həyata keçirilməsinin nəticəsi olaraq Azərbaycan dövləti müstəqilliyin möhkəmləndirilməsi, tarazlı və davamlı inkişafın təmin edilməsi istiqamətində atdığı addımları və əldə etdiyi iqtisadi uğurları ilə dünyanın aparıcı dövlətinə, eləcə də beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilmişdir. Artıq dünya birliyinə yaxından inteqrasiya olunan müstəqil Azərbaycan Respublikasında bütün proseslər xalqımızın milli mentalitetinə və dövlətçilik prinsiplərinə uyğun olaraq beynəlxalq birliyin, nüfuzlu beynəlxalq təşkilatların rəyləri nəzərə alınmaqla müasir dövrün tələbləri səviyyəsində qurulmaqdadır. Ölkə başçısı cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə reallaşan iri yerli və regional layihələr nəticəsində Azərbaycan dövləti öz iqtisadi nəticələri ilə dünyanın sürətlə inkişaf edən ölkələri sırasındadır.

2003-cü ildən həyata keçirilən sosial-iqtisadi inkişaf siyasəti iqtisadi islahatların dərinləşdirilməsi, mövcud potensialın gücləndirilməsi və ondan istifadənin səmərəliliyinin yüksəldilməsi əsasında ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığının təmin olunmasına, bu sahədə artıq əldə olunmuş nailiyyətlərin daha da möhkəmləndirilməsi və artırılmasına xidmət etmişdir. Ümumilikdə, İlham Əliyevin 2003-2012-ci illəri əhatə edən prezidentlik dövründə əldə edilmiş iqtisadi uğurlara makroiqtisadi sabitliyin qorunub saxlanılması və davamlı iqtisadi artımın təmin edilməsi, iqtisadi idarəetmənin səmərəliliyinin yüksəldilməsi, qeyri-neft sektorunda inkişafın sürətləndirilməsi, investisiya mühitinin yaxşılaşdırılması və regionlarda sahibkarlığın, istehsal, sosial infrastrukturların inkişafı, bu sahədə

stimullaşdırıcı addımların atılması, ölkədə yoxsulluğun səviyyəsinin əhəmiyyətli şəkildə azaldılması, məşğulluğun təmin edilməsi, milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası istiqamətində fəaliyyətin gücləndirilməsi və s. kimi məsələləri aid etmək olar. Bu uğurlu siyasətin sosial-iqtisadi nəticələrini statistik məlumatlar da bir daha təsdiq edir.

Belə ki, yalnız 2003-2010-cu illərdə ÜDM real ifadədə 3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2 dəfə, xarici ticarət dövriyyəsi 5,4 dəfə, strateji valyuta ehtiyatları 19 dəfə artmışdır. Eyni zamanda, adambaşına düşən ÜDM-in həcmi 2003-cü ilin göstəricisi ilə (872,7 manat) müqayisədə nominal ifadədə 5,3 dəfə, real ifadədə isə 2,7 dəfə artaraq 2010-cu ilə 4653,3 manat təşkil etmişdir. Bu müddət ərzində ölkə üzrə işsizlik səviyyəsi 1,6 dəfə, yoxsulluq səviyyəsi isə 4,9 dəfə azalmış, son 7 ildə əhali gəlirlərinin artımı (4,5 dəfə) inflyasiya səviyyəsini (1,9 dəfə) qabaqlaması nəticədə əhalinin gəlirləri real ifadədə 2,3 dəfə artmışdır.

Bütün bunların beynəlxalq təşkilatlar tərəfindən dəqiqliklə qiymətləndirilməsi və Dünya Bankı kimi nüfuzlu bir beynəlxalq təşkilatın Azərbaycanı "Doing Business" proqramında (2008-ci il) bir nömrəli islahatçı ölkə kimi tanıması, dünyanın ən mötəbər qurumlarından olan Dünya İqtisadi Forumunun makroiqtisadi sabitlik, əmək bazarının səmərəliliyi, dövlət idarəetməsinin, infrastruktur təminatının və maliyyə bazarının mükəmməllik səviyyəsi və bu kimi digər mühüm meyarlar əsasında 2009-2010-cu illər üçün hazırladığı "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın 18 pillə irəliləyərək 133 ölkə arasında 51-ci, MDB ölkələri arasında isə 1-ci yerə yüksəlməsi onu göstərir ki, Azərbaycan iqtisadiyyatı çoxşaxəli, stabil və dinamikdir. Məlumat üçün qeyd edək ki, adıçəkilən hesabatda qonşu ölkələrdən Türkiyə 61-ci, Rusiya 63-cü, Qazaxıstan 67-ci, Ukrayna 82-ci, Gürcüstan 90-cı yerdədir. Bu isə təbii ki, ölkəmizdə aparılan islahatların, düzgün siyasətin və atılan addımların real nəticəsidir. Məlumat üçün qeyd edək ki, Azərbaycan Dünya İqtisadi Forumunun hazırladığı "Qlobal Rəqabətlilik Hesabatında" 57-ci yeri tutmuşdur. Bu nəticəyə görə ölkəmiz MDB məkanında liderliyini qorumuşdur. Azərbaycan makroiqtisadi sabitlik göstəricisinə görə də bütün MDB ölkələrini qabaqlayaraq 13-cü yerdə qərarlaşmışdır. Dünya Bankı (DB) və Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) "Doing Business 2011: "Sahibkarlıq üçün şəraitin yaxşılaşdırılması" birgə hesabatının nəticələrinə əsasən, Azərbaycan sahibkarlıq fəaliyyəti üçün əlverişli şərait reytinqində 183 ölkə arasında 54-cü yeri tutmuşdur.

Təbii ki, ümumi iqtisadi inkişaf ayrı-ayrı sahələrin tərəqqisi əsasında əldə edilir. Belə ki, ölkə iqtisadiyyatının əsasını təşkil edən və ÜDM-də xüsusi çəkisi 50 faizdən yüksək olan (2010-cu ildə 52,5 faiz) sənaye sahəsində 2003-2011-ci illər ərzində davamlı inkişaf müşahidə olunmuş, məhsul istehsalının real artımı orta hesabla 14,7 faizə çatmışdır. Neft və qaz hasilatı üzrə ölkəmizdə qazanılmış tarixi rekord nəticələr hər il təzələnməkdədir. Belə ki, Azərbaycanda neft hasilatı tarixində ən yüksək göstərici 1941-ci ilə (23,5 milyon ton), qaz hasilatında isə 1982-ci ilə (14,9 milyard kubmetr) təsadüf etmişdisə, 2007-ci ildə hasil edilmiş neftin həcmi 42,6 milyon ton, təbii qazın həcmi 16,9 milyard kubmetr, 2010-cu ildə isə bu rəqəmlər 50,8 milyon. ton və 26,3 milyard. kubmetrə çatmışdır. Bu illər ərzində "Azəri" və dərinsulu "Günəşli" yataqlarından neftin, "Şahdəniz" yatağından qazın hasilatına başlanmışdır. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin, Cənubi Qafqaz qaz kəmərinin tikintisi tamamlanmış və kəmərlər istismara verilmişdir.

Bütün bunlarla yanaşı, 2010-cu ildə "Ümid" qaz yatağı kəşf edilmişdir. Yatağın təxminən 200-250 milyard kubmetr qaz ehtiyatına malik olduğu ehtimal edilir. Yataqdan qazla bərabər 30-40 milyon ton qaz kondensatının da hasil edilməsi gözlənilir. Ümumiyyətlə, ölkənin qaz ehtiyatlarının həcmi 2 trilyon kubmetrdən çoxdur. Bu da ölkəni təbii qazla tam təmin etməyə və hətta onun bir hissəsinin xaricə ixracına əlverişli şərait yaradır. O cümlədən, "Azərbaycan Respublikasının yanacaq enerji kompleksinin inkişafı (2005-2015- ci illər) üzrə Dövlət Proqramı"na uyğun olaraq ölkədə müasir və səmərəli elektrik stansiyalarının, yüksək gərginlikli elektrik xətlərinin və yarımstansiyalarının tikintisi, paylayıcı şəbəkə təsərrüfatında əsaslı islahatlar və texniki yenidənqurma işləri üzrə layihələr həyata keçirilmişdir. Mühüm enerji layihələri həyata keçirilmiş, yeni elektrik stansiyalarının tikilib işə salınması, elektrik enerjisi şəbəkələrinin infrastrukturunun yeniləşdirilməsi əhalinin və iqtisadiyyatın elektrik enerjisinə olan tələbatının daha etibarlı və tam ödənilməsinə imkan vermişdir.

Ölkə başçısı regionlarda mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadəni təmin etmək, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı və aqrar sektorda islahatları sürətləndirmək, yeni iş yerləri yaratmaq, məşğulluq səviyyəsini və insanların yaşayış şəraitini yüksəltməklə yoxsulluğu azaltmaq, infrastruktur sahələrini təkmilləşdirmək və yeniləşdirmək, əlverişli investisiya şəraiti formalaşdırmaqla ölkənin, xüsusilə, regionların investisiya cəlbediciliyinə nail olmaq, mövcud potensiala və yerli şəraitə uyğun müasir müəssisələr yaratmaq və beləliklə də tarazlı regional inkişafa nail olmaq istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi məqsədi ilə 2004-cü il 11 fevral tarixli fərmanı ilə "Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər

üzrə) Dövlət Proqramı”nı təsdiq etmişdir. Eyni zamanda, ölkə başçısı son beş ildə Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran, Aran, Gəncə-Qazax və s. iqtisadi rayonlarına daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə sərəncamlar da imzalamışdır.

Bütün bunlarla yanaşı, Azərbaycan hökumətinin sosial məsuliyyət prinsipinə ciddi riayət edərək vaxtaşırı xalq qarşısında hesabat verməsi artıq ənənə halını almışdır. Bu istiqamətdə bir məsələni də xüsusi qeyd etmək lazımdır ki, cənab İlham Əliyevin Azərbaycanın dövlətçilik tarixində əsasını qoyduğu xoş bir ənənə də mövcuddur ki, bu da prezidentlik vəzifəsinin kabinetdən regionlara keçirilməsi, verilən göstərişlərin icra vəziyyətinə birbaşa nəzarət olunmasıdır. Məhz bunun nəticəsidir ki, yalnız 2003-2008-ci illər ərzində ölkə başçısı regionlara 127 səfər etmiş, o cümlədən 6 dəfə Naxçıvan Muxtar Respublikasında olmuş, yerlərdə görülən işlərlə maraqlanmış, tapşırıq və tövsiyələrini vermiş, Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər üzrə) Dövlət Proqramı”nda nəzərdə tutulmuş vəzifələrin icrası ilə tanış olmuş, ölkəmizin abadlaşması və inkişafı üçün əhəmiyyətli olan 500-dək müəssisə və obyektin təməlqoyma və açılış mərasimlərində şəxsən iştirak etmişdir. Sumqayıt şəhərində, Quba, Şəki, Astara və Xaçmaz rayonlarında elektrik stansiyaları, Gəncədə “Kəpəz” markalı avtokran, “Belarus” tipli traktor və “Maz” tipli ağır tonnajlı yük avtomobili istehsal edən avtomobil zavodu, İmişlidə şəkər zavodu, Şamaxıda müasir standartlara cavab verən televizorlar, kondisionerlər istehsal edən zavod, Naxçıvanda “Lifan” markalı minik avtomobilləri istehsal edən avtomobil zavodu, müxtəlif regionlarda asfalt-beton zavodları, Abşeron rayonunda duz zavodu, Lənkəran rayonunda yağ-süd, dondurma və pivə zavodları, Masallı rayonunda mebel zavodu, Biləsuvar rayonunda konserv zavodu, Hacıqabul rayonunda kərpic zavodu, Xaçmaz rayonunda konserv və pivə zavodları, Qəbələ rayonunda meyvə şirələri istehsal edən zavod və Gədəbəy rayonunda qızıl-mis emalı zavodu və s. yüzlərlə yeni sənaye müəssisələri yaradılmış və məhsul növlərinin çeşidi xeyli artmışdır. Nəticədə regionlarda mövcud potensialdan səmərəli istifadə etməklə istehsal müəssisələrinin fəaliyyəti daha da genişləndirilmiş, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin yüksəldilməsi, məşğulluğun artırılması və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsi istiqamətində müəyyən uğurlar əldə edilmişdir.

Son illər sürətlə inkişaf edən sahələrdən biri də aqrar sektordur. Statistik məlumatlardan aydındır ki, yalnız 2003-2008-ci illər ərzində aqrar bölmədə real artım 4,5 faiz olmuş, 1191 kollektiv, 156 kənd təsərrüfatı istehsal kooperativləri, 2651 kəndli-fermer təsərrüfatı yaradılmışdır. Eyni zamanda, ölkə başçısının sərəncamı ilə kənd təsərrüfatı istehsalçılarına məhsul istehsalı üçün istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin təqribən 50 faizinin dövlət tərəfindən ödənilməsi, “Aqrolizinq” Səhmdar Cəmiyyətinin yaradılması, onun köməyi ilə kənd təsərrüfatı texnikasının və texnoloji avadanlığın lizinqlə verilməsi, ödəmə müddətinin 5 ildən 10 ilə qədər artırılması, buğda istehsalçılarına əkilən hər hektar sahəyə görə 40 manat miqdarında yardım verilməsi və s. tədbirlərin nəticəsidir ki, aqrar bölmədə bütün zəruri məhsulların istehsalı üzrə müvafiq uğurlar təmin edilmişdir.

Belə ki, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi və “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli sərəncamına uyğun olaraq həyata keçirilən tədbirlər nəticəsində əhalinin normal yaşayışı üçün xüsusi əhəmiyyət kəsb edən aqrar sektor sürətlə inkişaf etməkdədir. Aqrar sektorun inkişafı istiqamətində:

-kənd təsərrüfatı məhsulları istehsalçılarının məhsul istehsalı üçün istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin 50 faizinin dövlət tərəfindən ödənilməsi;

-buğda istehsalçılarının maddi marağının artırılması və buğda istehsalçılarının stimullaşdırılması məqsədilə dövlət büdcəsinin vəsaiti hesabına əkilən hər hektar üçün 40 manat yardımın verilməsi;

-məhsuldarlığa təsir göstərən reproduksiyalı toxum materialının satışına görə hər kq-a 30-40 faiz əlavə maliyyə vəsaitinin ayrılması;

-həmçinin, 2009-cu ilin yanvar ayının 1-dən “Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun qüvvədə olma müddətinin 5 il müddətinə uzadılması;

-müntəzəm olaraq kənd təsərrüfatı məhsullarının satışı üzrə yarmarkaların təşkil edilməsi;

-kənd təsərrüfatı istehsalçılarına yardım etmək məqsədilə “Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” 23 oktyabr 2004-cü il tarixli sərəncamı əsasında “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin yaradılması;

-meyvə və tərəvəz məhsullarının saxlanılması üçün xüsusi anbarların tikilməsi kimi vacib məsələlər həyata keçirilmişdir.

Məhz yuxarıda sadalanan tədbirlər nəticəsində 2003-2010-cu illərdə kənd təsərrüfatının ümumi məhsulu real ifadədə hər il orta hesabla 3,7 faiz artmışdır. Ərzaq təhlükəsizliyinin milli səviyyədə

gücləndirilməsi baxımından qeyd etmək olar ki, kartof, tərəvəz, bostan məhsulları, meyvə və giləmeyvə, süd, mal və qoyun əti, şəkər, meyvə şirələri, habelə digər əsas ərzaq məhsulları ilə Azərbaycan özünü tam təmin edir.

Son illərdə ölkənin sürətlə inkişaf edən sahələrindən biri də nəqliyyat sektoru olmuşdur. Bu sahə istər yeni yol və yol ötürücülərinin tikilib istifadəyə verilməsi, istər sərnişin və yük daşımalarına dair müvafiq tədbirlərin həyata keçirilməsi, istərsə də daşıma xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və s. istiqamətlərdə atılan mühüm addımlarla yadda qalmışdır. Şəhərdaxili və şəhərlərarası sərnişin daşımalarına yeni komfort və iritutumlu avtobusların cəlb edilməsi, bütün ölkə boyunca yolların və yol infrastrukturlarının yenidən qurulması, yollarda hərəkətin təşkili və təhlükəsizliyi istiqamətində müvafiq tədbirlərin görülməsi və s. Azərbaycan hökumətinin bu istiqamətdə atdığı addımların bir hissəsidir. Məhz ölkə başçısının qətiyyətliliyinin, verilən tapşırıqların icrasına birbaşa və ciddi nəzarətinin, eləcə də regional infrastrukturların inkişafına göstərdiyi diqqət və qayğının nəticəsidir ki, 2003-2008-ci illər ərzində ölkənin, həmçinin regionların inkişafında böyük rolu olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin inşası, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin yaradılması kimi möhtəşəm layihələr başa çatdırılmış, Bakı-Tbilisi-Qars dəmir yolunun inşasına başlanmış və beləliklə, Azərbaycan regionun mühüm iqtisadi güc mərkəzinə, eyni zamanda, dünyanın enerji təhlükəsizliyində aparıcı mövqeyə malik güclü dövlətə çevrilmişdir.

Nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədi ilə 2003-2008-ci illər ərzində regionlarda 1000 kilometrdən çox magistral yollar çəkilmiş və ya əsaslı təmir edilmiş, 600 kilometr respublika əhəmiyyətli və 2700 kilometr yerli əhəmiyyətli yollarda təmir işləri aparılmış, 69 yeni körpü tikilmiş, 34 körpü təmir edilmiş, eləcə də Naxçıvan, Gəncə, Lənkəran və Zaqatala şəhərlərində müasir standartlara uyğun yeni hava limanları tikilmişdir. Hal-hazırda da yolların abadlaşdırılması, yenidən qurulması, Ələt qəsəbəsində böyük terminalın yaradılması və Lənkəranda yeni dəniz limanının tikintisi və s. istiqamətlərdə işlər davam etdirilir.

Təbii ki, bütün bunlar milli iqtisadiyyatın digər sahələri ilə yanaşı, turizm, nəqliyyat və s. kimi xidmət sahələrinə də təsirsiz ötüşə bilməzdi. Xüsusilə, dinamik artan yerli istehsal, sürətlə genişlənən xarici əlaqələr, ölkəmizin əlverişli coğrafi-strateji mövqeyi və s. səbəblərdən daşıma xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, daşımaların operativ, təhlükəsiz və qısa zamanda təşkili artıq zərurətə çevrilmişdir. Eyni zamanda, ölkəmizin qoşulduğu beynəlxalq və regional layihələr Azərbaycanı zəngin tranzit potensialına malik bir ölkəyə çevirmişdir. Transmilli nəqliyyat proqramları və layihələri çərçivəsində, o cümlədən TRASEKA və Şimal-Cənub beynəlxalq dəhlizlərinin Azərbaycan seqmentində avtomobil magistrallarının tikintisi və yenidənqurulması, regionlarda, xüsusən dağ rayonlarında yol şəbəkəsinin bərpası və təkmilləşdirilməsi işləri həyata keçirilmişdir ki, bütün bunlar da daşıma xidmətlərinin kəmiyyət və keyfiyyət göstəricilərinin artmasına təsir göstərmişdir. Əldə edilən nailiyyətlər yalnız avtomobil daşımaları xidmətinə deyil, bütün nəqliyyat xidmətlərinə təsir edirdi. Məsələn, Azərbaycanda hasil edilmiş karbohidrogenin dünya bazarlarına nəql edilməsi məqsədilə illik layihə gücü 50 milyon ton olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri, eləcə də Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmişdir ki, bu da boru kəməri daşımalarını inkişaf etdirməklə yanaşı, həm də ölkəmizi Avropanın enerji təhlükəsizliyində aparıcı bir dövlətə çevirmişdir.

Bütün bunlar isə ölkəmizin dünya iqtisadi sisteminə inteqrasiyasını şərtləndirən Heydər Əliyev ideyalarının reallaşmasının bariz nümunələridir. Prezident İlham Əliyevin uğurla davam etdirdiyi çevik və ardıcıl siyasət Azərbaycanı Xəzər regionunda əsas multimodal nəqliyyat qovşağına və beynəlxalq aləmdə əhəmiyyət kəsb edən neft və qaz tranziti ölkəsinə çevirmişdir. Həmçinin, “Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə Tədbirlər Planı” və “Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008-2013-cü illər üçün əlavə Tədbirlər Planı”nda yol infrastrukturu üzrə nəzərdə tutulmuş işlərin icrası ilə bağlı olaraq son illərdə yol qovşaqlarının və piyada keçidlərinin inşası və yolların yenidən qurulması davam etdirilmişdir. Azərbaycan, Gürcüstan və Türkiyə arasında imzalanmış “Bakı-Tbilisi-Qars yeni dəmiryol xətti haqqında” sazişə müvafiq olaraq, Türkiyə və Gürcüstanın ərazilərində dəmir yolu xətlərinin inşası və yenidənqurulması işlərinin aparılması nəticəsində Türkiyə ilə Azərbaycan arasında birbaşa dəmir yolu əlaqəsinin yaradılması, eləcə də Qara dəniz və Xəzəryanı ölkələrin Avropanın dəmir yolu şəbəkəsinə qoşulması mümkün olacaqdır.

Son illər ölkədə İKT və poçt sektoru sürətlə inkişaf edərək gəlirlərin orta illik artım tempi 30-35 faiz arasında dəyişmişdir və demək olar ki, inkişaf tempinə görə bu sahə ölkə iqtisadiyyatının bütün sektorlarını qabaqlamağa başlamışdır. Dünya təcrübəsi göstərir ki, qeyri-neft sektorunun inkişafında informasiya texnologiyalarının rolu xüsusilə əhəmiyyətlidir. Daim texnoloji yeniliklərlə müşayiət olunan İKT sektorunda həm yeni xidmət növlərinin yaradılması, həm də mövcud xidmətlərin həcminin genişlənməsi hesabına son illər ərzində yaradılmış əlavə dəyərin qeyri-neft ÜDM-də xüsusi çəkisi 4-5 faiz

təşkil etmişdir. İKT sektorunun gələcək inkişafının hüquqi əsaslarını müəyyənləşdirmiş “2003-2012-ci illərdə Azərbaycan Respublikasının inkişafı üçün informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya” sənədini əhatə edən tədbirlərin icrasının bu sahənin inkişafının davamlılığının təmin edilməsində müstəsna rolu olmuşdur.

Davos Dünya İqtisadi Forumunun “Global İnformation Technologies 2009-2010” hesabatında Azərbaycan Respublikası, əvvəlki illərdə olduğu kimi, MDB ölkələri arasında liderliyini qoruyub saxlamış və bu dəfə “Şəbəkə hazırlığı indeksinə” (Networked Readiness Index) görə dünyanın 133 ölkəsi arasında 64-cü yeri tutmuşdur. Azərbaycan bu reytinqin ilk yarısına düşən yeganə MDB ölkəsidir. Qeyd edək ki, bu indeks üzrə Rusiya 80-cı, Qazaxıstan 68-ci, Ukrayna 82-ci, Gürcüstan 93-cü, Ermənistan isə 101-ci yerdə qərarlaşmışdır. Bu hesabata əsasən Azərbaycan nəinki MDB dövlətlərini, həmçinin Türkiyə (69-cu yer), Polşa (65-ci yer), Misir (70-ci yer), Meksika (78-ci yer) kimi ölkələri də qabaqlaya bilmişdir. O cümlədən, Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) “Measuring the Information Society – 2010” hesabatında aparılan “İKT İnkişaf İndeksi” üzrə qiymətləndirmə 159 ölkəni əhatə etmişdir ki, bu hesabata görə Azərbaycan 81-ci yeri tutmuşdur. Bütün bunlardan əlavə Economist Intelligence Unit (EIU) tərəfindən aparılan “2009-cu ildə İT-industriyada rəqabətqabiliyyətliliyin müqayisəli təhlili” hesabatında Azərbaycan informasiya texnologiyaları sektorunda 63-cü yerdən 61-ci yerə yüksəlmişdir. Müsbət haldır ki, Azərbaycan hesabatın nəticələrinə əsasən MDB ölkələri arasında Rusiya Federasiyası, Ukrayna və Qazaxıstandan sonra 4-cü yeri tutmuşdur.

**İsa ALIYEV,**
**AMEA İqtisadiyyat İnstitutunun direktoru, iqtisad elmləri doktoru, professor,**

**Aqil ƏSƏDOV,**
**institutun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent**